ISSN 3023-5480

**Article Arrival Date** 13.12.2024
**Article Published Date** 20.12.2024

# ÜZEYİR HACIBAYOV'UN YARATICI MİRASI

# CREATIVE LEGACY OF UZEYIR HAJIBAYOV

**Aygun Ahmadova Shukur kızı**

Doçent Dr. Azerbaycan Devlet Pedagoji Üniversitesi, Edebiyat Öğretim Teknolojileri Bölümü

0000-0002-2464-2513

## Özet

Üzeyir Hacıbeyov, 1899-1904'te Gori Öğretmen Okulu'nda okudu. Okul onun bakış açısının oluşmasında önemli bir rol oynadı. Hacıbeyov, okul yıllarında ileri dünya kültürüyle yakından tanıştı. Burada Avrupa müzik klasiklerinin eserlerinde ustalaştı, keman ve bariton çalmayı öğrendi ve halk şarkısı örneklerini notalara kopyaladı.

U. Hacıbeyov'un "Leyla ve Mecnun" operasının Bakü'de 12 Ocak'ta (yeni yönteme göre 25) Hacı Zeynalabdin Taghiyev'in tiyatrosunda icra edilmesiyle sadece Azerbaycan'da değil, tüm Müslüman Doğu'da opera sanatının temeli atılmıştır. Hacıbeyov operanın librettosunu Fuzuli'nin aynı isimli şiirinden yola çıkarak yazdı. Üzeyir'in eserlerinde Fuzuli'nin şiirine karşı çok derin bir sevgi hakimdir. Samad Vurgun çok doğru bir şekilde Üzeyir'e şöyle dedi: "Ey Fuzûlî şiirini besteci kardeşi!

Halk kahramanlığı motiflerine dayanan "Köroğlu" operası, Azerbaycan'ın ilk klasik operası olarak kabul ediliyor. Bu eser Üzeyir Hacıbeyov'un yaratıcılığının zirvesidir. Aynı yıl Üzeyir Hacıbeyov'a "Azerbaycan SSR Halk Sanatçısı" fahri unvanı verildi. Azerbaycan opera sanatının incilerinden sayılan bu operada Üzeyir Bey ilk kez klasik opera formunu takip ederek aryalar, toplu koro sahneleri, çeşitli topluluklar, bale numaraları ve resitaller yarattı. "O Köroğlu" operasında senfonik orkestranın kompozisyonunda Azerbaycan halk müziği enstrümanları yer almış ve orkestranın renkli bir sese kavuşması sağlanmıştır. Üzeyir Bey, Azerbaycan müziğinde köklü bir değişime imza atan dahi bir bestecidir. 19. yüzyılın başlarına kadar sözlü halk müziği sanatı şeklinde var olan Azerbaycan milli müziğini, Batı Avrupa bestecilik ekollerinin başarıları, formları ve türleriyle zenginleştirdi, Azerbaycan ve Doğu müziğinin gelecekteki gelişim perspektiflerini ve estetik ilkelerini belirledi. genel olarak.

Müslüman Doğu'daki ilk operet de Üzeyir Hacıbeyov'un adıyla anılır. Bestecinin ilk müzikal komedisi üç perdelik "Karı koca"dır. Bu eser Azerbaycan'da müzikal komedinin ilk örneğidir. "Olmasın, bu olsun" adlı müzikal komedi çeşitli dillere çevrilerek Kafkas ülkelerinin yanı sıra Türkiye, Bulgaristan, Yemen ve diğer ülkelerde sahnelendi. Üzeyir Hacıbeyov'un üçüncü ve son müzikal komedisi "Arşın mal alan"dır. Müzikal komedi "Arşın mal alan" Azerbaycan'ın devrimden önceki yaşamını, halk gelenek ve göreneklerini yansıtıyor. U. Hacıbeyov'un müzikal komedisi "Arşin mal alan" İngilizce, Almanca, Çince, Arapça, Farsça, Ukraynaca, Belarusça, Gürcüce vb. dillere çevrildi. Üzeyir Hacıbeyov 22 Kasım 1948'de vefat etti. Mezar yeri Fakhri Khiyaban.

**Anahtar kelimeler:** opera, tarih, gazete, okul, komedi, tercüman, sahne

## Abstract

Uzeyir Hajibeyov studied at the Gori Teachers' School in 1899-1904. The school played an important role in the formation of his perspective. During his school years, Hajibeyov became

closely acquainted with the advanced world culture. Here he mastered the works of European music classics, learned to play the violin and baritone, and copied folk song samples into notes. The performance of U. Hajibeyov's opera "Leyla and Majnun" in Baku on January 12 (25 according to the new method) at the theater of Haji Zeynalabdin Taghiyev laid the foundation of opera art not only in Azerbaijan, but also in the entire Muslim East. Hajibeyov wrote the libretto of the opera based on Fuzuli's poem of the same name. A very deep love for Fuzuli's poetry prevails in Uzeyir's works. Samad Vurgun very correctly said to Uzeyir: "Oh brother, the composer of Fuzuli's poem!

The opera "Koroglu", based on folk heroic motifs, is considered the first classical opera of Azerbaijan. This work is the peak of Uzeyir Hajibeyov's creativity. In the same year, Uzeyir Hajibeyov was awarded the honorary title of "People's Artist of the Azerbaijan SSR". In this opera, which is considered one of the pearls of Azerbaijani opera art, Uzeyir Bey for the first time followed the classical opera form, creating arias, mass choir scenes, various ensembles, ballet numbers and recitals. In the opera "O Koroglu", Azerbaijani folk music instruments were included in the composition of the symphonic orchestra, and the orchestra gained a colorful sound. Uzeyir Bey is a genius composer who made a radical change in Azerbaijani music. He enriched the Azerbaijani national music, which existed in the form of oral folk music art until the beginning of the 19th century, with the achievements, forms and genres of Western European schools of composition, and paved the way for the future of Azerbaijani and Eastern music. development perspectives and aesthetic principles. in general. The first operetta in the Muslim East is also named after Uzeyir Hajibeyov. The composer's first musical comedy is the three-act "Karı koca". This work is the first example of musical comedy in Azerbaijan. The musical comedy "Olanmış, bu olmak" was translated into various languages and staged in the Caucasian countries, as well as in Turkey, Bulgaria, Yemen and other countries. The third and last musical comedy of Uzeyir Hajibeyov is "Arşın mal alan". The musical comedy "Arşın mal alan" reflects the life of Azerbaijan before the revolution, folk traditions and customs. U. Hajibeyov's musical comedy "Arşın mal alan" was translated into English, German, Chinese, Arabic, Persian, Ukrainian, Belarusian, Georgian, etc. Uzeyir Hajibeyov died on November 22, 1948. His burial place is Fakhri Khiyaban.

**Keywords:** opera, history, newspaper, school, comedy, interpreter, stage

## Giriş

Üzeyir Hacıbəyov 1899-1904-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsil almışdır. Onun dünyagörüşünün formalaşmasında seminariya böyük rol oynamışdır. Hacıbəyov seminariya illərində qabaqcıl dünya mədəniyyəti ilə yaxından tanış olmuşdur. O, burada Avropa musiqi klassiklərinin əsərlərini mənimsəmiş, skripka və baritonda çalmağı öyrənmiş, xalq mahnı nümunələrini nota köçürmüşdür. Qori seminariyasında Üzeyir Hacıbəyov gələcəkdə Azərbaycan opera musiqisində öz sözünü deyəcək Müslüm Maqomayev ilə tanış olmuşdur. Seminariya illərindən başlanan dostluq sonralar həm də qohumluğa çevrildi. Üzeyir Hacıbəyov və Müslüm Maqomayev Terequlovlar ailəsi ilə qohum olmuşdular. (Həsən Səfərağa oğlu Terequlov (1835 —1911) maarifçi, ictimai xadim olmuşdur. 1880-ci ildə, qardaşı İbrahimlə birlikdə Tiflisdə ilk dəfə olaraq qızların və oğlanların birgə oxuması üçün nəzərdə tutulan rus-tatar məktəbi açmışdır. O, Tiflisdə sünnilər məscidinin rəhbəri olmuşdur. Hər iki qardaş xeyriyyəçiliklə də məşğul idilər). Belə ki, Üzeyir Hacıbəyov Məleykə xanımla, Müslüm Maqomayev Badigülcamal xanım Terequlova ilə evləndi.

Seminariyanı bitirdikdən sonra Hacıbəyov 1904-cü ildə Cəbrayıl qəzasının Hadrut kəndinə müəllim təyin edilmişdir. Hadrut kənd məktəbində rus dili, hesab, tarix və musiqidən dərs demişdir.

ISSN
3023-5480

Ü.Hacıbəyov Rusiyada 1905-1907-ci illər inqilabı ərəfəsində Bakıya gəlmiş, Bibiheybətdə, sonralar isə "Səadət" məktəbində dərs demişdir. Üzeyir Hacıbəyov Bakıda ədəbi-publisistik fəaliyyətə başlayaraq "Həyat" qəzetində tərcüməçi işləmişdir. Həmin gündən nəşr edilməyə başlayan "İrşad" qəzetinin əməkdaşı olmuşdur. 1907-ci ildə Bakıda Azərbaycan türkcəsində "Hesab Məsələləri" və "Mətbuatda İstifadə olunan Siyasi, Hüquqi, İqtisadi və Əsgəri Sözlərin Türki-Rusi və Rusi-Türki Lüğəti"ni nəşr etdirir. Rus yazıçısı Nikolay Qoqolun "Şinel" povestini Azərbaycan dilinə tərcümə edir.

1911-ci ildə Üzeyir Hacıbəyov musiqi təhsili almaq üçün Moskvaya getmiş, Moskva filarmonik cəmiyyəti nəzdində İlyinskinin xüsusi musiqi kursunda təhsil almışdır. Moskvadan göndərdiyi satirik hekayə və felyetonlar "İqbal" qəzetində dərc olunmuşdur. Maddi ehtiyac üzündən Hacıbəyov Moskvada musiqi təhsilini yarımçıq qoyub, Bakıya qayıtmağa məcbur olmuşdur. Bəstəkar Bakıya qayıdır və burada yaradıcılıq fəaliyyətini davam etdirərək, yazdığı operaları səhnəyə qoymaqla məşğul olur.

Üzeyir Hacıbəyovla Məleykə xanım Hacıbəyova 1910-cu ildə ailə həyatı qurublar. İxtisasca rus dili müəllimməsi olan Məleykə xanım həyat yoldaşının sənətinə yaxın olmaq üçün konservatoriyanın musiqi nəzəriyyəsi şöbəsinə daxil olub. Adətən gecələr işləyən Üzeyir bəyi Məleykə xanım heç vaxt tək qoymayıb. Bu insanlar 38 il qoşa ömür sürüblər.

1918-ci ildə ermənilərin Azərbaycanda törətdiyi mart qırğını zamanı erməni daşnakları Üzeyir bəyin evini gülləbaran ediblər. Şərqin ilk operasını yazan bəstəkara qısqanclıqla yanaşan ermənilər evin divarlarını, gülləyə tuturlar. Bu qəlpələr sonralar 1975-ci ildə bəstəkarın ev-muzeyinin açılışı ərəfəsində təmizlənib.

Sovet hakimiyyətinin ilk illərində Üzeyir Hacıbəyovun adı tez-tez xalq düşmənləri sırasında səslənməyə başlayır. 1920-ci ildə bəstəkarı güllələmək istəyirlər. Bu təhlükə sırf təsadüf nəticəsində sovuşur. Üzeyir Hacıbyovun qaynı Hənəfi Terequlov əqidəcə qatı kommunist idi. O, təhlükəsizlik idarəsi şöbə müdirlərinin birinin masasının üstündə təsadüfən haqqında güllələnmə hökmü çıxarılan 59 nəfərin siyahısında Üzeyir Hacıbəyovun da adını görür. Başılovlu Nəriman Nərimanovun yanına gedərək, vəziyyəti danışır. Nəriman Nərimanov müvafiq orqanlardan həmin siyahını tələb edir. Onları tələm-tələsik qərar çıxarmaqda günahlandıran Nərimanov bu siyahını cırıb atır. Nəriman Nərimanov bəstəkara bir müddət Bakıdan uzaqlaşmağı məsləhət görür.



1939-cu ildə Üzeyir Hacıbəyov şəkər xəstəliyinə tutulur. Uzun illər Üzeyir Hacıbəyovun şəxsi katibi işləyən yaxın qohumu Ramazan Xəlilovun dedyinə görə, bəstəkar bu xəstəliyi ünvanına deyilən ağır ittihamlardan sonra tapıb. Belə ki, 1939-cu ildə Moskvada ittifaq miqyasında milli musiqi alətləri ifaçılarının müsabiqəsi keçirilir. Stalinin göstərişi ilə münsiflər heyətinə Üzeyir Hacıbəyov başçılıq edirdi. Müsabiqə zamanı bəstəkar bərk əsəbiləşir, təbiətcə sakin insan olan Üzeyir bəy uzun müddət sakitləşə bilmir: Azərbaycanı təmsil edən ifaçılar arasında ermənilərin olmasına baxmayaraq, Bakı erməniləri Moskvaya məktub yazırlar və bildirirlər ki, Üzeyir Hacıbəyov millətçilik edərək qeyri-millətlərin müsabiqədə iştirakına əngəllər törədir. 1930-cu illər üçün bu ittiham ən ağır ittiham idi. Molotov ona ünvanlanan ərizəyə dərkənar qoyaraq, bəstəkara göndərir: "Özünüz həll edin". Başdan-ayağa böhtan olan bu ərizə bəstəkarın əsəblərinə ciddi təsir göstərir və o, şəkər xəstəliyinə tutulur.

Üzeyir bəy Hacıbəyov bədii yaradıcılığa publisistika ilə başlamışdır. O, "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni iqbal" qəzetlərində və Molla Nəsrəddin" jurnalında "Ordan-burdan", "O yan-bu yan" və s. başlıqlar altında "Ü", "Filankəs", "Behmankəs" və s. gizli imzalarla dövrün mühüm ictimai-siyasi, maarifçilik məsələlərinə dair çoxlu məqalə, felyeton və satirik miniatürlər dərc etdirmişdir. "Molla Nəsrəddin" jurnalında Üzeyir bəy Hacıbəyov məzəli imzalardan çox istifadə etmişdir: "Adı bəy, özü Filankəs2, "Anaş Qurbağa", "Tısbağa", "Qatilov", "Behmankəs", "Cin", "Xoca Lələ", "Bızbıza", "Çoban",

ISSN

3023-5480

"Əqrəb". "Qaf", "Beş", "İdarədən", "Lal uşaq", "Bala uşaq", "Gendən baxan", "Gendən qulaq asan", "Yalançı" və s. Gülüş, yumor onun həm insan kimi təbiətinin, həm də ədəbi yaradıcılığının, o cümlədən publisistikasının başlıca keyfiyyətlərindən idi. XX əsrin əvvəllərində Azərbaycan mətbuatının aparıcı janrlarından olan felyeton Ü.Hacıbəyovun da publisistik fəaliyyətində əhəmiyyətli yer tuturdu. Bədii və publisist tarazlığı saxlamaq etibarilə Ü.Hacıbəyovun felyetonları, oçerk və parodiyaları böyük dəyəri olan əsl sənət əsərləridir.

Üzeyir Hacıbəyovun zəngin yumoristik söz yaradıcılığı vaxtı ilə dövri mətbuat səhifələrində "Ordan-burdan" ümumi başlığı altında dərc etdirdiyi yazılar xüsusi yer tutur. Ü. Hacıbəyovun "Bazar söhbəti", "Məzhəkə", "Təhsil" kimi əsərləri aşkar seçilən komponentləri ilə satirik hekayə; "Rəfiqimdən məktub", "Üçüncü dəllək", "Məclisimizin duzu" "O, heç!", "Tərəqqi və gerilik, "Ha fikir edirəm başa düşmürəm!" kimi yazıları öz publisistik əlamətləri, ictimai-siyasi məzmunu və bədii dəyəri ilə felyetondur. Müəllif əsərlərində əsasən Bakı şəhər Dumasının fərsiz deputatlarını rüsvay edir, tutduqları siyasi mövqeyə layiq olmadıqlarını nümayişkaranə açıqlıqla onların uzlərinə vurur, fəaliyyətsiz "qlasnıları" barsız ağaclara bənzədir. Ü. Hacıbəyovun qaravəlli və satirik miniatürlərini (məsələn "Dövlət Duması", "Ata və oğul", "Moizə" və s.) böyük komedioqrafın sonrakı səhnə əsərlərinə səmərəli müqəddimə hesab etmək olar.

Bütün ömrü boyu Üzeyir bəy Azərbaycan mədəniyyətinə, musiqisinə xidmət edən bu unudulmaz şəxsiyyət 300-dən çox xalq mahnısını nota salmış, marş, kontata, fantaziya, mahnı və romanslar, kamera və xor əsərlərini yazmışdır. Üzeyir bəy Hacıbəyov həm Azərbaycan Xalq Cümhuriyyətinin, həm də sovet Azərbaycanının himnlərini müəllifi olmuşdur.

Ü.Hacıbəyovun 1908-ci il yanvarın 12-də (yeni üsulla 25-də) Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında göstərilən **"Leyli və Məcnun" operası** ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsası qoyulmuşdur. Hacıbəyov operanın librettosunu Füzulinin eyni adlı poeması əsasında yazmışdır. İlk tamaşaya istedadlı aktyor və rejissor Hüseyn Ərəblinski quruluş vermişdi. Dirijor isə yazıçı-dramaturq Əbdürrəhimbəy Haqverdiyev idi. Məcnun rolunda Hüseynqulu Sarabski, Leyli rolunda isə aşpaz şagirdi Əbdürrəhim Fərəcov çıxış etmişlər. Sonrakı tamaşalarda isə Hacıbəyov özü və onun yaxın dostu və məsləkdaşı bəstəkar Müslüm Maqomayev dirijorluq etmişlər.



Bəstəkarın fikrincə, Füzuli poemasının ruhu, lirikası, "Leyli və Məcnun" poemasının romantizmi məhz muğam kimi möhtəşəm bir musiqi ilə təcəssüm oluna bilər. Operanın musiqisi əsasən muğam və təsniflər üzərində qurulmuşdur. "Leyli və Məcnun" ilə musiqi tarixində operanın yeni növü-muğam operası meydana gəldi. Üzeyir Hacıbəyovun məhz Füzulinin yaratdığı "Leyli və Məcnun" poemasına müraciətinin səbəbi ondan ibarət idi ki, bu əsər Azərbaycan dilində yazılaraq, Şərq ədəbiyyatının inkişafına böyük təsir göstərmişdi. Bu əsərdən parçalar peşəkar xanəndələr tərəfindən muğamlarda çox ifa olunaraq, xalq arasında geniş yayılmışdı. Azərbaycanda ilk opera olan "Leyli və Məcnun" xalq tərəfindən çox sevildi və bu günə kimi də Azərbaycan opera və balet teatrının səhnəsində oynamılır. Azərbaycan operasının məhz Füzulinin "Leyli və Məcnun" poeması əsasında yazılması təsadüfi deyil. Üzeyir yaradıcılığında Füzuli poeziyasına çox dərin bir məhəbbət hökm sürürdü. Səməd Vurğun çox doğru olaraq Üzeyirə "Ey Füzuli şerinin bir bəstəkar qardaşı! deyə müraciət etmişdir.

Məcnun rolunun ilk ifaçıları Hüseyinqulu Sarabski olmuşdur. Yarandığı gündən sevilən, musiqisi və sözləri dillər əzbərinə dönən "Leyli və Məcnun" operası milli mədəniyyətimizin şanlı salnaməsinə çevrildi. Operanın səhnələşdirilməsində əsas problem Leyli rolunun ifaçısını seçmək idi. XX əsrin əvvəllərində Azərbaycanda qadın aktyorları səhnədə problem olduğu üçün bu rolun ilk ifaçısı çayçı Əbdürrəhman Fərəcov seçilib. Bir dəfə Üzeyir bəy çayçıda olarkən çayçı işləyən birinin xoş zümzüməsini eşidir və onu operaya gətirərək Leyli rolunu ona təklif

edir. İkinci tamaşada Fərəcov Leyli rolunu oynamaqdan imtina edir. Yenə də təsadüf nəticəsində Miri adlı bir şəxsə Leylini oynamaq həvalə edilir.

Sonralar bu rolların ifaçıları Əhməd Ağdamski, Hüseynağa Hacıbababəyov və nəhayət qadın ifaçılardan səhnəyə Sona Hacıyeva, Məhbubə Paşayeva,Yavər Kələntərli, Gülxar Həsənova, Cahan Talışinskaya və başqalarını söyləmək olar.

Xalq qəhrəmanlıq dastanının motivlərinə əsaslanan **“Koroğlu” operası** Azərbaycanda ilk klassik opera hesab olunur. Bu əsər Üzeyir Hacıbəyovun yaradıcılığının zirvəsini təşkil edir. Elə həmin il Üzeyir Hacıbəyov “Azərbaycan SSR xalq artisti” fəxri adına layiq görülmüşdür.

1937-ci il aprelin 30-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında ilk dəfə tamaşaya qoyulan **Koroğlu operası** (əsərin ədəbi əsası H.İsmayılov və Məmməd Səid Ordubadinindir) Hacıbəyov yaradıcılığının zirvəsini təşkil edir. Azərbacan opera sənətinin incilərindən sayılan bu operada Üzeyir bəy ilk dəfə olaraq klassik opera formasına riayət edərək bitkin ariyalar, kütləvi xor səhnələri, müxtəlif ansambllar, balet nömrələri, reçitativlər yaratmışdır.

O, Koroğlu” operasında simfonik orkestrin tərkibinə Azərbaycan xalq musiqi alətlərini daxil edərək orkestrin rəngarəng səslənməsinə nail olmuşdur. Üzeyir bəy Azərbaycan musiqisində köklü dönüş yaratmış dahi bəstəkardır. O, XIX əsrin əvvəllərinədək şifahi xalq musiqi sənəti şəklində mövcud olan Azərbaycan milli musiqisini Qərbi Avropa bəstəkarlıq məktəblərinin nailiyyətləri, forma və janrları ilə zənginləşdirmiş, Azərbaycan və ümumiyyətlə Şərq musiqisinin gələcək inkişaf perspektivlərini, estetik prinsiplərini müəyyənləşdirmişdir.

1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti dekadasında “Arşın mal alan”, “Koroğlu” operaları böyük maraqla qarşılanır. Hər iki operaya baxan Stalin bəstəkarın yaradıcılığını yüksək qiymət verir. “Koroğlu”nu zamanıda yaradılan opera hesab edən Stalin Üzeyir Hacıbəyova məsləhət görür ki, “Bir yox, iki belə opera yaratmaq lazımdır”.



Stalinin göstərişi ilə Azərbaycandan gələn nümayəndə heyətinin şərəfinə ziyafət təşkil edilir. Deyilənə görə, həmin məclisdə Üzeyir Hacıbəyova yuxarı başda Stalinlə Mircəfər Bağırovun yanında yer göstərilir. Stalin Üzeyir bəylə xeyli söhbət edir və söhbət əsnasında “Arşın mal alan” operasına hələ Gürcüstanda olarkən baxdığını bildirir, “Arşın mal alan”dan parçalar da oxuyur.

Hacıbəyov həyatının son illərində “Firuzə” operası üzərində işləmişdir. Bu bitməmiş operadan təkcə Firuzənin ariyası qalmışdır.

**Musiqili komediyaları**

Müsəlman şərqində ilk operetta da Üzeyir Hacıbəyovun adı ilə bağlıdır. Bəstəkarın ilk musiqili komediyası üç pərdədən ibarət “Ər və arvad”dır. Bu əsər Azərbaycanda musiqili komediyanın ilk nümunəsidir. Əsərin ilk tamaşası 1910-cu ildə olmuşdur. Rollarda H.Sarabski (Mərcan bəy), Ə.Ağdamski (Minnət xanım) və başqaları çıxış etmişlər. Komediyalarının mətnini də Üzeyir bəy özü yazmışdır.

**O olmasın, bu olsun (operetta)**

1910-cu ildə Üzeyir Hacıbəyov “Ər və arvad”dan sonra ikinci operettasını yazır. İlk tamaşa 1911-ci il aprelin 25-də (mayın 8-də) Bakıda, Mayılov qardaşlarının teatrında olmuşdur. Əsərin musiqi partiyası ənənəvi xalq mahnı-rəqs havalarına əsaslanan orijinal parodiya uzərində qurulmuşdur. “Uzundərə” lirik xalq rəqsinin bir qədər dəyişdirilən melodiyasından istifadə olunmuş və Məşədi İbadın ilkin xarakteristikasını verən "Mən nə qədər, nə qədər qoca olsam da" mahnısı bu yöndəmsiz, çirkin tacirin ifasında ifrat mubaliğəli səslənir. Əsərin sonuncu pərdəsində təkrarlanan bu mahnı Məşədi İbadın mənəvi məğlubiyyətini göstərir.

ISSN
3023-5480

Sonralar "O olmasın, bu olsun" musiqili komediya müxtəlif dillərə tərcümə olunaraq Qafqazyanı ölkələrdə, eləcə də Türkiyədə, Bolqarıstanda, Yəməndə və digər məmləkətlərdə tamaşaya qoyulmuşdur.

**Arşın mal alan**

Üzeyir Hacıbəyovun üçüncü və sonuncu musiqili komediyası "Arşın mal alan"dır. "Arşın mal alan" musiqili komediyasında inqilabdan əvvəlki Azərbaycan məişəti, xalq adət və ənənələri əksini tapmışdır. Hacıbəyov 1911-ci ildə musiqi təhsilini artırmaq üçün Moskvaya getmiş, həmin il burada filarmonik cəmiyyətin musiqi kurslarında, 1913-cü ildə isə Peterburq konservatoriyasında oxumuşdur. Peterburq dövrü Hacıbəyovun yaradıcılığında mühüm rol oynamış, o, "Arşın mal alan" musiqili komediyasını məhz burada yaratmışdır. Üzeyir Hacıbəyovun yazdığı bu operetta 70-ə yaxın xarici dilə tərcümə edilmiş, 100-dən çox teatrın səhnəsində oynanılmışdır. "Arşın mal alan" beş dəfə ekranlaşdırılmış, dəfələrlə qrammafon valına yazılmışdır.

"Arşın mal alan" musiqili komediya əsasında ilk bədii film 1916-cı ildə çəkilmişdi. Bu, səssiz film olub. İkinci dəfə 1917-ci ildə Sankt-Peterburqdan gəlmiş Q. Beyyatov "Arşın mal alan"ı yenidən ekranlaşdırmışdı. Lakin o bu işi görərkən nə müəllifdən icazə almış, nə də onunla məsləhətləşmişdi. Bu səbəbdən də cəmi iki gün nümayiş etdirilən film ekrana buraxılmamışdır. Üçüncü dəfə isə 1937-ci ildə ABŞ-da yaşayan rejissor R.Mamulyan adlı bir erməni rejisor "Arşın mal alan"ı Üzeyir Hacıbəyovdan icazə almadan, ekranlaşdırmışdır. Filmdə Azərbaycan bəstəkarının adını göstərməmişdir. Dördüncü dəfə "Arşın mal alan" 1945-ci ildə Bakı kinostudiyasında ekranlaşdırılmış və bu musiqili film də dünyada geniş şöhrət qazanmışdır. Baş rolda Rəşid Behbudov çəkilib. Lakin əsərlərinə kimlərinsə düzəliş etmələri il heç cür barışmayan Üzeyir bəy "Arşın mal alan" bədii filmindən narazı qalmışdı. Filmə baxış sona yetəndən sonra Üzeyir bəy söz alaraq deyib: "Mənim övladım yoxdur. Əsərlərim mənim övladlarımdır. Heç kimin onlara toxunmağa haqqı yoxdur". 1965-ci ildə isə "Arşın mal alan" musiqili komediyası Bakıda yenidən ekranlaşdırıldı. Bu rəngli, musiqili filmin rejissoru Tofiq Tağızadə, musiqi redaktoru Fikrət Əmirov idi. Baş rolun ifaçıları Həsən Məmmədov, Murad Yegizarov, Nəcibə Məlikova, Leyla Şıxlinskaya idi. Ü. Hacıbəyovun "Arşın mal alan" musiqili komediyası ingilis, alman, çin, ərəb, fars, polyak, ukrayna, belorus, gürcü və s. dillərə tərcümə edilmişdir.



Üzeyir bəy Azərbaycan musiqisində köklü dönüş yaratmış dahi bəstəkardır. O, XIX əsrin əvvəllərinədək şifahi xalq musiqi sənəti şəklində mövcud olan Azərbaycan milli musiqisini Qərbi Avropa bəstəkarlıq məktəblərinin nailiyyətləri, forma və janrları ilə zənginləşdirmiş, Azərbaycan və ümumiyyətlə Şərq musiqisinin gələcək inkişaf perspektivlərini, estetik prinsiplərini müəyyənləşdirmişdir. Hacıbəyov həm də böyük musiqişunas alim idi. O, müasir Azərbaycan elmi musiqişunaslığının əsasını qoymuş, musiqiyə dair çoxlu məqalələr yazmış, tədqiqatlar aparmışdır.

Üzeyir Hacıbəyov 1948-ci il 22 noyabrda vəfat etmişdir. Dəfn yeri Fəxri Xiyaban.

***Ədəbiyyat***

1.Hacıbəyov Ü. Seçilmiş əsərləri. Bakı- Yazıçı, 1985, 653 s.

2.Üzeyir Hacıbəyov-üçüncü cild. Bakı-1968, 307 səh

3.Rəhimli İ. Azərbaycan teatr antologiyası. I cild, EL, Bakı: 2013.

4.Rəhimli İ. Azərbaycan teatr tarixi. Bakı: 2004.